

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 avqust 2024-cü il №61 (2872) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev avqustun 14-də XXXIII Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul edib.*



AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən dövlətimizin başçısı **İlham Əliyev** deyib:

- İlk növbədə, idmançılarımızı gözəl qələbələr münasibətilə təbrik edirəm. Siz Yay Olimpiya Oyunlarında ölkəmizi ləyaqətlə təmsil etmisiniz, Azərbaycan Bayrağını ucaltmısınız, bütün xalqımızı sevindirmisiniz. Sizi həm təbrik edirəm, həm də sizə öz təşəkkürümü bildirmək istəyirəm.

Olimpiya Oyunları bütün digər idman yarışları arasında xüsusi yer tutan bir yarışdır, dörd ildən bir keçirilən idman bayramıdır və əlbəttə ki,



hər bir idmançı, hər bir ölkə bu Oyunlara xüsusilə hazırlaşır. Bizim Olimpiya Oyunlarındakı uğurlarımız əvvəlki illərdə də, son Oyunlarda da göstərir ki, Azərbaycan güclü idman dövlətidir. Təsadüfi deyil ki, biz bu Oyunlarda dünyanın ən güclü 30 ölkəsinin arasında yer almışıq - 2 qızıl, 2 gümüş və 3 bürünc medal, hesab edirəm ki, çox yaxşı nəticədir. İdmançıları, onların məşqçilərini bu gözəl hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm.

Onu da bildirmək istəyirəm ki, müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə qərarlaşıb. Nəzərə alsaq ki, İslam Əməkdaşlıq Təşkilatında 57 üzv mövcuddur, hesab edirəm, bu, çox gözəl və tarixi nəticədir. Bütövlükdə komandamızın çıxışına qiymət verərək mən hesab edirəm ki, bizim idmançılarımız ən yüksək qiymətə layiq olmalıdır.

Xüsusilə qızıl medalçılarımızı - Hidayəti və Zelimi ürəkdən təbrik etmək istəyirəm. Onlar Olimpiya Oyunlarının ilk günlərində bu qələbə sevincini xalqımıza bəxş etmişlər. Onların həm peşəkarlığı, həm idmandakı uğurları və eyni zamanda, davranış qaydaları, əlbəttə ki, hər birimizi ürəkdən sevindirdi. Onlar uzun illər ərzində öz çəki dərəcələrində liderliyi qoruyublar və bu liderliyi Olimpiya Oyunlarında bir daha təsdiq etmişlər. Onların məşqçilərini təbrik edirəm, Cüdo Federasiyasının rəhbərliyini təbrik etmək istəyirəm. Federasiyada işlər, təlim-məşq prosesi düzgün qurulanda, ab-hava gözəl olanda nəticə də əlbəttə ki, göz qabağındadır.

Daha çox medal qazana bilərdik, bəli, qazana bilərdik. Amma bu idmandır, idmanda qələbə də olur, məğlubiyyət də olur. Əsas odur bu Oyunlar bir daha göstərdi ki, Azərbaycanda idmanın inkişafı ardıcıl surətdə gedir. Onu da bildirməliyəm ki, bizim idmançılarımız beş idman növündə medallar qazanmışlar: cüdo, boks, taekvondo, yunan-Roma güləşi, sərbəst güləş üzrə. Yəni, bu da onu göstərir ki, Azərbaycanda idmanın bir çox növləri inkişaf edir.

Əlbəttə ki, indi müəyyən istirahətdən sonra yeni hazırlıq prosesinə start veriləcək, həm Avropa, həm dünya çempionatlarına hazırlıq işləri gedəcək. Əlbəttə ki, biz növbəti Olimpiya Oyunlarına da indidən hazırlaşmalıyıq. Bir neçə idman növündə nəsillərin dəyişməsi prosesi gedir. Ona görə təbii ki, biz növbəti Olimpiya Oyunlarına bu prizmadan yanaşmalıyıq və xüsusilə uşaq-yeniyetmə idmanına bundan sonra da diqqət göstərilməlidir. Nəzərə alsaq ki, idmanla məşğul olmaq üçün indi ölkəmizin hər bir yerində gözəl şərait var. İdmana rəhbərlik edən qurumlar arasında koordinasiya işləri düzgün qurulub, federasiyalar, klublar uğurla fəaliyyət göstərir. Nəzərə alsaq ki, hər bir Olimpiya Oyunlarından sonra, xüsusilə ölkəmiz üçün uğurlu Oyunlardan sonra idman bölmələrinə uşaqların, yeniyetmələrin axını müşahidə olunur, mən əminəm, növbəti Olimpiya Oyunlarına hazırlıq prosesi də ardıcıl aparılacaq.

Əlbəttə, tam əminəm ki, həm cüdo, həm digər idman növləri ilə məşğul olmaq istəyən uşaqlarımızın sayı çox olacaq və bunu arzulayıram. Uzun illər ərzində idmanın kütləviliyi ilə bağlı dediyim sözlər və verdiyim tapşırıqlar bir məqsədi güdür ki, fiziki, mənəvi cəhətdən sağlam, Vətənə bağlı, vətənpərvər və peşəkar gənc nəsil yetişsin. İdmançılarımızın uğurlu çıxışları bunu bir daha göstərdi ki, biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik.

Əlbəttə ki, bu nailiyyətlər, eyni zamanda, medallar qazanmış idmançıların məsuliyyətini də artırır. Mən şadam ki, bizim idmançılarımız həm yarışlarda, eyni zamanda, həyatda da nümunəvi davranış qaydaları göstərirlər. Yəni, siz gənclər üçün nümunəsiniz. Gənclər sizə baxıb sizin kimi olmaq istəyəcəklər və bu qələbənin vacib olan tərəflərindən biri məhz bundan ibarətdir.

Bir daha sizi ürəkdən təbrik etmək və sizə yeni qələbələr, uğurlar arzulamaq istəyirəm.

* * *

Olimpiya çempionu, cüdoçu **Hidayət Heydərov** çıxış edərək deyib:



- Cənab Prezident, bu gün bizi buraya dəvət etdiyiniz üçün çox sağ olun. Mən çox xoşbəxtəm ki, dünya çempionu olanda Siz məni təbrik etdiniz, mənə dəstək oldunuz. Olimpiya çempionluğunda ilk olaraq Siz mənə zəng edib təbrik etdiniz. Düzdür, özü burada olmasa da, mən bizim Olimpiya çempionumuz Elnur Məmmədliyə "Çox sağ ol" demək istəyirəm. Biz bir-birimizə söz vermişdik ki, Avropa, dünya və Olimpiya çempionu olacağıq və olduq. İnşallah, bundan sonra da Los-Ancelesin Olimpiadasına birlikdə hazırlaşıb orada da öz qələbəmi göstərəcəyəm.

Mən fəxr edirəm ki, Fransanın Paris şəhərində Olimpiya çempionu oldum, bizim Bayrağımız qalxdı və Himnimiz səsləndirildi. Mən bununla çox fəxr edirəm, çox sağ olun, minnətdaram Sizə.

Prezident **İlham Əliyev**: Sağ ol.

* * *

Dövlətimizin başçısı Parisdə keçirilən Yay Olimpiya Oyunlarında idmançılarımızın zəhməti, istedadı, peşəkarlığı sayəsində qazandıqları qələbənin bütün xalqımıza sevinc bəxş etdiyini deyib.

Azərbaycan Prezidenti qeyd edib ki, xüsusilə Olimpiya Oyunlarında qazanılan qələbə idmanda da, məişətdə də, həyatda da idmançının üzərinə böyük məsuliyyət qoyur. İdmançılarımızın yalnız məharətləri ilə deyil, həm də yarış zamanı layiqli davranışları ilə seçildiklərini vurğulayan dövlətimizin başçısı deyib ki, bu, onların yüksək mənəvi keyfiyyətlərini bütün dünyaya nümayiş etdirdi. Prezident İlham Əliyev uzun illər Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında ölkəmizin adını ucaldan veteran idmançılara minnətdarlığını ifadə edib.

Dövlətimizin başçısı Azərbaycan idmançılarına və məşqçilərinə yeni qələbələr və uğurlar arzulayıb.

* * *

Sonra Olimpiya çempionları, cüdoçular Hidayət Heydərov və Zelim Kotsoyev Azərbaycan Prezidentinə xatirə hədiyyələri təqdim ediblər.

Daha sonra dövlətimizin başçısı XXXIII Paris Yay Olimpiya Oyunlarında qazanılan yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə təltif olunan idmançılara və onların məşqçilərinə ordenləri təqdim edib.

Sonda xatirə şəkli çəkdirilib.

# Azərbaycan və Səudiyyə Ərəbistanı Krallığının hərbi mütəxəssisləri arasında işçi görüşü keçirilib



*Səudiyyə Ərəbistanı Krallığının Silahlı Qüvvələrinin Təhsil Məsələləri və Mənəvi Dəyərlərin Təbliği Baş İdarəsinin rəisi general-mayor Misfir bin Həsən Əl-İsanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib.*

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi polkovnik Elşad Əbilov qonaqlarla görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, nümayəndə heyətinə "hərbçilərin mənəvi-psixoloji ruhunun yüksəldilməsində milli-mənəvi, əxlaqi və vətənpərvərlik dəyərlərinin mühüm rolu" mövzusunda





mühazirələr oxunub, ideoloji işin təşkili və hərbi psixoloqların hazırlığı istiqamətində görülən işlər, eləcə də əsas fəaliyyət istiqamətlərinə dair brifinq təqdim edilib.

Görüşdə, həmçinin ölkələrimiz arasında hərbi təhsil sahəsində əməkdaşlığın genişləndirilməsindən söhbət açılıb və qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

## Naxçıvan istiqamətində mövqelərimiz atəşə tutulub

Avqustun 15-i saat 18:10 radələrində Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Gənzə yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atıcı silahlardan atəşə tutulub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

* * *

Avqustun 16-sı saat 03:20 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

# Özbəkistan nümayəndə heyəti ölkəmizə səfər edib





Azərbaycan və Özbəkistan respublikaları arasında imzalanan 2024-cü il üçün ikitərəfli əməkdaşlıq planına əsasən, Özbəkistan hərbi qulluqçuları müasir silahlı münaqişələrdə taktiki pilotsuz uçuş aparatlarının (PUA) istifadəsinin planlaşdırılması və tətbiqi taktikası kursunda iştirak etmək məqsədilə ölkəmizə səfər ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, kurs müddətində özbəkistanlı qonaqlara Hərbi Hava Qüvvələrinin tarixi və fəaliyyəti haqqında, həmçinin PUA-ların ənənəvi döyüşlərdə tətbiqi, döyüş uçuşunun təşkili, Azərbaycan Ordusunda mini və mikro PUA-ların tətbiqi mövzularında brifinq təqdim olunub.

Nümayəndə heyətinə Azərbaycan Ordusunun arsenalında yer alan bəzi PUA-lar əyani olaraq nümayiş etdirilib, qurğuların taktiki-texniki xüsusiyyətləri barədə məlumat verilib.

## Türkiyənin milli müdafiə naziri Yaşar Güler: Terrorçular regionda küncə sıxışdırılıb

Prezident Rəcəb Tayyib Ərdoğan regionda, o cümlədən qonşu Suriyada sabitliyin təmin edilməsi istiqamətində ciddi addımlar atır.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin milli müdafiə naziri Yaşar Güler yerli telekanalların birinin efirində bildirib.

Ankara ilə Dəməşq arasında dialoqun perspektivlərini şərh edən Güler qeyd edib ki, Suriya tərəfi ilkin şərt kimi türk qoşunlarının öz ərazisindən çıxarılması üçün vaxtın təyin edilməsini irəli sürür. "Biz bu tələbi Dəməşqin regionda sülhü təşviq etmək səylərinə töhfə vermək istəməməsi kimi qəbul edirik. Suriyada yeni hərtərəfli Konstitusiya qəbul edilməli və azad seçkilər keçirilməlidir, bundan sonra biz xalqın seçdiyi hökumətlə işləməyə hazır olacağıq", - deyə türkiyəli nazir bildirib.

Nazir bəyan edib ki, Türkiyə Silahlı Qüvvələrinin əməliyyatları sayəsində Şimali İraq və Suriyada fəaliyyət göstərən terrorçular küncə sıxışdırılıb və sərhəd bölgələrini tərk etmək məcburiyyətində qalıblar. Güler xəbərdarlıq edib: "Terrorçuları gizləndikləri yerdə də təqib edəcəyik".

Vaşinqtonun PKK-YPG terror təşkilatının Suriya qanadının yaraqlılarına hava hücumundan müdafiə sistemləri verməsi ilə bağlı sualı cavablandıran Türkiyə Milli Müdafiə Nazirliyinin rəhbəri bəzi cinayətkar təşkilatlardan digərlərinə qarşı mübarizədə istifadənin qəbuledilməzliyini vurğulayıb.

"ABŞ-dakı dostlarımız deyirlər ki, İŞİD terrorçuları ilə mübarizə aparmaq üçün bölgədə əlavə qüvvələrə ehtiyac var. Sonra biz də deyirik ki, "nəyə ehtiyacın olduğunu söylə, onu sənə verək". Cavab vermirlər. Bir tərəfdən, ölkələrimiz NATO-da müttəfiqdir, digər tərəfdən, onlar Türkiyə tərəfinin mövqeyini ələ salırlar", - deyə nazir bildirib.

Gülerin sözlərinə görə, amerikalılar raket hücumlarından qorunmaq üçün Suriyaya hava hücumundan müdafiə sistemləri yerləşdiriblər. Eyni zamanda, türkiyəli nazir amerikalı təlimatçılar tərəfindən Suriyada terrorçuların hazırlanmasını qəbuledilməz adlandırıb.

Yaşar Güler Türkiyə Hərbi Hava Qüvvələrinin donanmasının modernləşdirilməsi mövzusuna da toxunub. O qeyd edib ki, Türkiyə ABŞ-dan 40 ədəd F-16 - "Viper Blok" təyyarəsi almağa çalışır və bu proses müsbət istiqamətdə davam edir. Eyni zamanda, Ankara Avropa istehsalı olan "Eurofighter"ləri də almağa hazırdır.

"Eurofighter" istehsalçıları konsorsiumuna daxil olan ən azı üç ölkə (İtaliya, İspaniya və Böyük Britaniya - red.) Türkiyəyə çoxməqsədli qırıcı təyyarələrin tədarükü ideyasını dəstəkləyir. Almaniyadan da müsbət siqnallar gəlir. Ümid edirik ki, Ankaranın müraciəti tezliklə təsdiqlənəcək", - deyə nazir bildirib.

## HHQ-nin helikopter bölmələri ilə təlim-məşq uçuşları keçirilib



Cari ilin hazırlıq planına əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) helikopter bölmələri ilə təlim-məşq uçuşları keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, şəxsi heyətə qarşıya qoyulan tapşırıqlar və təhlükəsizlik qaydaları çatdırıldıqdan sonra hərbi pilotların sağlamlıq vəziyyəti yoxlanılıb.

Təlim-məşq uçuşlarının planına uyğun olaraq, bazalanma aerodromlarından müəyyən edilmiş marşrutlar üzrə uçuşlar edən helikopterlər gündüz və gecə vaxtı havaya qalxma və yerə enmə, hava kəşfiyyatının aparılması, eləcə də digər fəaliyyətlər üzrə tapşırıqları yerinə yetiriblər.

Döyüş hazırlığı və praktiki vərdişlərin daha da artırılması məqsədilə keçirilən təlim-məşq uçuşlarında hərbi pilotlar yüksək peşəkarlıq nümayiş etdiriblər.

*Medallı igidlərimiz*

# "Mən də müharibə iştirakçısıyam!"



Yeniyetməlik çağlarından ədəbiyyatımızın tanınmış nümayəndəsi, xalq şairi Məmməd Arazın məşhur misralarını Bəhruz da unutmur, Vətənin ona da oğul deməsini istəyirdi. İllər keçdikcə o, bütün peşələrdən üstün olan Vətən, xalq üçün daha çox gərəkli olan zabit peşəsinə yiyələnəcəyini bildirirdi. Gördüklərindən, oxuduqlarından bilirdi ki, peşəkar zabit kadrlarına daha çox ehtiyac var. Düşmən tərəfindən elan olunmamış müharibə, müstəqilliyimizə qarşı təşkil olunan qəsdlər, torpaqlarımızın işğal edilməsi onun ailəsində də həmişə narahatlıqla qarşılanırdı.

Bəhruz 1994-cü ildə Şərur rayonunun Qarxun kəndində anadan olub. Orta məktəbdə yüksək qiymətlərlə oxumaqla valideynlərinin, müəllimlərinin etimadını doğruldub. Vətənpərvərlik ruhunda formalaşıb, hərbçi peşəsinə olan marağı həmişə öndə olub. 8-ci sinfi bitirib Heydər Əliyev adına Hərbi Liseyə daxil olub. İlk arzusunu gerçəkləşdirən Bəhruz liseyin seçilən kursantı kimi müəllimlərin rəğbətini qazanıb. 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil olub. Artilleriya ixtisası üzrə təhsil alan Bəhruz seçdiyi ixtisasın sirlərini dərindən öyrənib, savadlı və vətənpərvər zabit kimi formalaşmağa çalışıb. Keçirilən təlim və məşğələlərdə də həmişə fərqlənən Bəhruz Vətənə, xalqa şərəfli xidmət etmək üçün zəngin bilik və təcrübə toplamağa səy göstərib.

Bəhruz Rzayev "N" hərbi hissəsində taqım komandiri kimi xidmətə başlayıb. Tabeçiliyindəki şəxsi heyətə yüksək vətənpərvərlik hissləri aşılamağa çalışıb. Onların etibarlı Vətən müdafiəçiləri olmaları üçün bilik və bacarıqlarını əsirgəməyib. Göstərilən etimadı həmişə doğruldan Bəhruz Rzayev ixtisası üzrə müvafiq təkmilləşdirmə kursları keçib. Layiqli xidməti və peşəkarlığı ilə seçilən Bəhruz "N" hərbi hissəsində batareya komandiri vəzifəsinə təyin olunub. Onun komandirlik etdiyi batareya döyüş hazırlığı üzrə keçirilən yarışlarda, təlimlərdə həmişə fərqlənib.

Vətən müharibəsində Bəhruz Rzayevin xidmət etdiyi hərbi hissənin şəxsi heyəti də qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirib. Onlar düşmən hücumlarının dəf edilməsində, onların atəş mənbələrinin susdurulmasında, dayaq məntəqələrinin məhv edilməsində xüsusi fəallıq göstəriblər. Torpaqlarımızın işğaldan azad olunmasında, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında göstərilən etimadı qətiyyətlə doğruldublar.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Bəhruz Rzayev "Zəngilanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub. Bir vaxtlar Vətənin ona oğul deməsini arzulayan Bəhruz bu böyük arzu, istəyini Vətənə, xalqa əvəzsiz xidmətləri ilə gerçəkləşdirdi. İndi təkcə Rzayevlər ailəsi deyil, bütün Azərbaycan xalqı ərazi bütövlüyümüzü, suverenliyimizi təmin edən, Vətənin fədakar oğullarına Vətən oğlu deyir. Çünki onlar Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə döyüşlərdə rəşadət, yüksək peşəkarlıq nümayiş etdirərək Zəfər qazandılar. Bu tarixi qələbəni əldə edənlərin sayəsində Azərbaycan xalqı dünyada qalib xalq kimi tanınır.

Bəhruz Rzayev qürurla deyir ki, mən də Vətən müharibəsi iştirakçısıyam...

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

*Sıra hazırlığı*

# Sıra hazırlığı əhəmiyyətli amildir



*Dünyanın hər bir ordusunda sıra hazırlığı hərbi intizamın ən vacib komponentlərindən biridir. Bu, sadəcə bir sıra elementlərdən ibarət məşğələ deyil, əsgərlərdə intizam, birlik və fiziki dözümlülük formalaşdıran hərbi xidmətin ayrılmaz hissəsidir. Bu, komandaların düzgün yerinə yetirilməsi və koordinasiya yaradaraq sinxron hərəkət etmək üçün şəxsi heyətə öyrətməyə yönəlmiş tədbirdir.*

"N" hərbi hissəsində hərbi hissənin ərazisində sıra hazırlığı məşğələsi keçirilirdi. Yaxınlıqdakı binalarda əks-səda verən ayaq səsləri eşidənlərdə qürur yaradırdı. Sıra meydanında şəxsi heyət məşğələ rəhbərinin komandalarını böyük həvəslə yerinə yetirirdi. Gizir Cavidan Manafov Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Sıra Nizamnaməsinə uyğun olaraq, əsgərlərin sırada vəzifələrini izah edir, silahsız sıra hərəkətlərini və yerişini, əsgəri salamlaşma qaydalarını və nizamnamənin digər tələblərini öyrədirdi.

Əsgərlərin komandaları dəqiq və vaxtında icra etmələri, onlarla əsgərin sinxron hərəkətləri xüsusən diqqət çəkirdi. Əsgərlər sağa-sola, geriyə dönmələri, yerində addımlamaları, eləcə də digər hərəkətləri bacarıqla yerinə yetirirdilər. Hiss olunurdu ki, şəxsi heyət sıra hazırlığı məşğələlərinə böyük həvəs göstərir, intizamın yüksək səviyyədə saxlanılmasına diqqət yetirirlər.

Fasilədə gizir Cavidan Manafov sıra hazırlığının mahiyyətdən söz açdı. "Sıra hazırlığı əsgərlərimizin intizamını formalaşdırır. Şəxsi heyət komandaları dəqiq və sinxron şəkildə yerinə yetirdikcə, ürəkaçan ahəngdarlıq nümayiş olunur. Bu, döyüş tapşırıqlarını yerinə yetirməyə ciddi hazırlığın göstəricisidir. Məşğələ zamanı biz əsgərlərə təkcə əmrləri düzgün yerinə yetirməyi deyil, həm də onlara dərhal cavab verməyi öyrədirik ki, bu da döyüş şəraitində insanların həyatını xilas edə bilər.

Bundan əlavə, sıra hazırlığı fiziki dözümlülüyü də inkişaf etdirir. Mütəmadi olaraq keçirilən dərslər və günün nizam qaydalarına əsasən tədbirlər şəxsi heyəti gücləndirir. Bu bacarıqlar xüsusilə sıra hazırlığında və döyüş əməliyyatlarında vacibdir.

Psixoloji aspekt də mühüm rol oynayır. Məşğələlər şəxsi heyətdə yoldaşlıq və qarşılıqlı kömək hissini möhkəmləndirir. Əsgərlər bir-birinə güvənməyi öyrənirlər ki, bu da ekstremal vəziyyətlərdə xüsusilə əhəmiyyətlidir.

Həmişə əsgərlərə sıra hazırlığının vacibliyini izah edirəm. Onlar başa düşürlər ki, bu, sadəcə bir dərs deyil, hərbi xidmətin əsasıdır. Onlara sıra meydanında inkişaf etdirilən intizamın və komanda şəklində fəaliyyətin real döyüş vəziyyətlərində necə kömək etdiyini də bildirirəm. Əsgərlər sıra hazırlığının vacibliyini düzgün anlamağa başlayırlar.

Məşğələ zamanı özünü fəal göstərən əsgər Eltun Qarayev bildirdi ki, sıra ilə orta məktəbdən tanışdır. Lakin ilk günlər sıra hazırlığı yorucu görünsə də, zaman keçdikcə onun əhəmiyyətini və dəyərini tamlığı ilə dərk etdim. "Sıra hazırlığı məşğələləri hərbi xidmətin bünövrəsidir. Bütün əsgərlər bir yerdə hərəkət etdikdə və əmrləri dəqiq yerinə yetirdikdə, daha mütəşəkkil oluruq. Sıra intizamlı olmağı öyrədir. Bu məşğələlər həm də fiziki dözümlülüyü inkişaf etdirir. Hərəkətlərdə əlaqələr yaxşılaşır. İndi başa düşürəm ki, sıra hazırlığı bizi daha güclü, daha vahid və qarşımıza qoyulan hər hansı tapşırığı uğurla yerinə yetirməyə hazırlayır".

Əsgərlər Müşviq Rzayev, Nurlan Həsənov, İlkin Kərimov, Səid Əhmədzadə və digərləri Eltunun fikrinə əlavə olaraq qeyd etdilər ki, sıra hazırlığının dərin tarixi kökləri var. Komandirlərimiz deyirlər ki, Qədim Yunanıstan və Roma orduları öz legionerləri üçün müxtəlif döyüş düzülüşləri fikirləşirdilər. Bu formada onlar daha güclü hücum edə bilir, düzgün müdafiə olunurdular. Müasir ordularda bu ənənələr qorunub saxlanılıb və döyüş əməliyyatlarının yeni tələbləri və şərtləri nəzərə alınmaqla təkmilləşdirilərək inkişaf etdirilir.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Odusu"**

## Türkiyə mediası:
## ABŞ odla oynayır! Amerika hərbçiləri Ermənistandadır

Türkiyənin "Milliyet" qəzeti ABŞ-ın Ermənistanda hərbi mövcudluğu mövzusunda məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, "ABŞ odla oynayır! Amerikalılar Azərbaycanın radarındadır, Ermənistanda əlavə qoşunlar" sərlövhəli məqalədə "Eagle Partner" təlimlərinin başa çatmasına baxmayaraq, Amerika hərbçilərinin Ermənistanda qalması ilə bağlı Azərbaycan mətbuatında yayılan xəbərlərə diqqət çəkilir.

Türkiyə qəzeti yazır: "Birləşmiş Ştatlar hərbi qulluqçularının hamısını Ermənistandan çıxarmayıb, onları gizli şəkildə Zəngəzur rayonuna yerləşdirib. Amerika tərəfinin hərəkətləri ilə bağlı iddialar qəzəb fırtınasına səbəb olub. Azərbaycan mediası Vaşinqtonu regionda qüvvələr balansını dəyişməyə çalışmaqda ittiham edib".

Nəşr diqqəti 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqazda formalaşmış və Azərbaycan torpaqlarının 30 ilə yaxın erməni işğalından azad edilməsi ilə nəticələnən yeni reallıqlara yönəldib. Məqalədə xatırladılıb ki, 2023-cü ilin sentyabrında Azərbaycan Ordusu cəmi 24 saat ərzində işğalçıları məğlubiyyətlə barışmağa məcbur edib.

"Milliyet" qəzeti daha sonra İrəvan ilə Moskva arasında münasibətlərdəki gərginliyin Rusiya hərbçilərinin Ermənistandakı dislokasiya yerində etirazlara səbəb olmasından yazıb.

Məqalənin müəllifi Hüseyn Narin qeyd edib ki, Nikol Paşinyan hökumətinin müttəfiqləri olan ABŞ və Fransa Azərbaycanın Qələbəsindən narahat olduqlarını gizlətmirlər. Məqalədə daha sonra diqqətə çatdırılır: "2023-cü ilin payızında bir qrup amerikalı hərbçi "Eagle Partner" təlimlərində iştirak etmək bəhanəsi ilə ilk dəfə Ermənistana gəlib. Bu, gözlənildiyi kimi, Moskvanın mənfi reaksiyasına səbəb olub. Rusiya Xarici İşlər Nazirliyi İrəvana açıq şəkildə NATO ilə yaxınlaşmanın yolverilməzliyi barədə xəbərdarlıq edib".

Türkiyə nəşri qeyd edir ki, ABŞ hərbçiləri 2024-cü ilin iyulunda yenidən birgə təlimlər bəhanəsi ilə Ermənistanda peyda olublar. Eyni zamanda, Pentaqonun saytında Amerika hərbçilərinin "Eagle Partner" çərçivəsində erməni əsgərlərinə təlim keçməsi və iki ölkənin bayraqları fonunda poza verməsi barədə onlarla fotoşəkil yerləşdirilib. Bazar ertəsi Azərbaycan mətbuatı ABŞ-ın bu ilin iyulunda təlimləri başa vurmasına baxmayaraq, Ermənistandan hərbçiləri çıxarmadığını, onları strateji əhəmiyyətli Zəngəzur rayonunda yerləşdirdiyini yazıb".

"Milliyet" Azərbaycan mətbuatında dərc olunmuş xəbərlərə istinadla qeyd edib ki, "Eagle Partner" təlimləri başa çatdıqdan sonra Amerika hərbi-nəqliyyat təyyarəsi "Zvartnots" hava limanına eniş edib. Müəllif yazır: "Amerika ordusunun Cənubi Qafqazda görünməsi təsadüfi deyil. ABŞ-ın İrəvandakı səfirliyi birgə təlimlərin başa çatdığını rəsmən elan etsə də, ABŞ hərbi-nəqliyyat təyyarələrinin İrəvana çatdırdığı yüklər çoxsaylı suallar doğurur".

Məqalədə, həmçinin göstərilir ki, Amerika hərbçilərinin İran sərhədləri yaxınlığında peyda olması Tehranı ciddi seçim qarşısında qoyub.

*Tarix yazan oğullar*

# "Cavidanın adını daşıyan küçə ilə gedəndə qürur hissləri keçirirəm"



Avqust ayının ikinci ongünlüyüdür. Günortadır. Seyrək buludların arasından boylanan Günəşin parlaq şüaları yer üzünü isidir. Hava olduqca xoşdur. Belə günəşli bir gündə torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş İbrahimli Cavidan Nizami oğlunun əvvəllər yaşadığı ünvanını axtarırdıq. Gəlməzdən əvvəl zəng vurub anası Gülnaz xanımdan ünvanlarını soruşmuşduq. Onun nişan verdiyi ünvandakı binaların qarşısındakı geniş meydanda dayanmışdıq. Sadəcə olaraq, hansı giriş qapısından içəri girəcəyimizi bilmirdik. Bunu dəqiqləşdirmək üçün yenə də şəhid anası ilə danışdıq. Gülnaz xanım dedi ki, evimizə giriş həyətdəki "Xatirə bulağı"nın yanındandır. Əgər bulağı görürsünüzsə, o səmtə gəlin, indi uşağı qabağınıza göndərirəm. Telefon danışığımızı bitirib ətrafa boylandıq. Bir az irəlidə hündür ağacın altında "Xatirə bulağ"ını gördük. Həmin səmtə addımladıq. Bulağın yanına çatmağa az qalmış binadan bir oğlanın qarşımıza çıxdığını gördük. O yaxınlaşıb salamlaşandan sonra zəng vuranların biz olduğumuzu dəqiqləşdirdi. Tanışlıq verərək şəhidin böyük qardaşı Kənan olduğunu dedi.

### "Şəhid olmasaydı indi ömrünün 25-ci ilini yaşayacaqdı"

Şəhidin evi birinci mərtəbədə idi. Şəhidin anası ilə kəndarda görüşdük. Sakitlik idi. Bu sakitliyi həyətdə oynayan uşaqların səsi pozurdu. Diqqətimizi Cavidanın xatirəsinə düzəldilmiş guşə cəlb etdi. Guşəyə Cavidanın müxtəlif illərdə çəkdirdiyi şəkilləri, sənədləri qoyulmuşdu. Döyüşlərdə böyük şücaət göstərərək şəhid olmuş oğlunun xatirə guşəsinə baxdığımızı görən Gülnaz xanım sözə başladı. Xatirələrin qanadında ötən illərə qayıdaraq Cavidanlı günlərindən danışdı. Dedi ki, illər yaman tez gəlib keçdi. Sanki bütün bunlar dünən, srağagün olmuşdu. Cavidan bir yaz günündə dünyaya göz açmışdı. Evimizin sonbeşiyi idi. Gəlişi ailəmizin sevincini daha da artırmışdı. Bir-birinə bənzəməyən günlər sanki onu tez böyütdü. Şən uşaq idi, qaraqabaq deyildi. Kədəri heç vaxt özünə yaxın buraxmazdı. Təbiətən çox sakit uşaq idi. Müəllimləri də həmişə ondan razılıqla danışardı. Sinif yoldaşları ilə də, qonşu uşaqlarla da çox mehriban davranırdı. Mehribanlığı ilə hamının sevgisini qazanmışdı. Onun kimləsə mübahisə etdiyini, davadalaş saldığını xatırlamıram. Cavidan həm də xeyirxah uşaq idi. Həmişə özündən balacalara kömək edərdi. Özündən böyüklərə isə hörmətlə yanaşardı. Şəhid olmasaydı, indi ömrünün 25-ci ilini yaşayacaqdı...

### "Komandirləri ona "xilaskar mələk" deyirmişlər"

Ananı qəhər boğdu, gözləri yaşardı, danışa bilmədi. Cavidanın otaqdakı guşəsinə boylanıb yaşadığı qısa, lakin şərəfli ömür yolu ilə tanış olduq. Öyrəndik ki, o, 24 mart 2000-ci ildə Bakı şəhəri Badamdar qəsəbəsində anadan olub. 2006-2017-ci illərdə 236 nömrəli tam orta məktəbdə təhsil alıb. 2018-2019-cu illərdə Azərbaycan Ordusunun sıralarında Vətənə övladlıq borcunu yerinə yetirib. O vaxt cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində xidmət edib. Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına görə 2020-ci il sentyabrın 27 də Vətən müharibəsi başlayanda Cavidan İbrahimli könüllü olaraq döyüşlərə getdi. O, Cəbrayılın, Füzulinin, Xocavəndin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Cəsarətlə vuruşub, böyük hünər göstərib. Cavidan döyüşlər zamanı bir çiynində silah, bir çiynində tibb çantası gəzdirib. Yaralanan zabit və əsgərlərə ilkin tibbi yardım göstərib, həyatlarını xilas edib. Buna görə də komandirləri də, əsgər yoldaşları onu "xilaskar mələk" adlandırıblar. C.İbrahimli oktyabrın 21-də Füzuli rayonunun Gecəgözlü kəndi uğrunda gedən döyüşdə şəhid olub. Oktyabrın 24-də Badamdar qəsəbəsində Şəhidlər xiyabanında torpağa tapşırılıb. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə İbrahimli Cavidan Nizami oğlu döyüşlərdə göstərdiyi igidliyə görə ölümündən sonra III dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Xocavəndin azad olmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.



### "Oğul itirmək ağır dərddir"

Gülnaz xanım yenə də Cavidanlı günlərindən danışdı. Dedi ki, İkinci Qarabağ müharibəsi başlayanda Cavidan cəbhəyə yollanmaq üçün könüllü olaraq müraciət etdi. İmkan olduqca zəng vurub iştirak etdiyi döyüşlərdən danışırdı. Səsində böyük sevinc duyulurdu. Sevinə-sevinə deyirdi ki, ermənilər qarşımızda dayana bilməyib geri çəkilir. Bu gedişlə qısa müddətdə sənin doğma yurdun Ağdamı da erməni işğalçılarından azad edəcəyik. Günlərin birində mən sizə Şuşadan zəng vuracam. Bu şad xəbərləri eşidəndə sevincimiz aşıb-daşırdı. Mən Ağdam rayonunun Əytəməzli kəndində dünyaya göz açmışam. Təəssüflər olsun ki, erməni işğalçıları 1993-cü il iyul ayında o gözəl yerləri də ələ keçirdilər. Cavidanın söylədiyi xoş xəbərlər ümid verirdi ki, yaxın zamanlarda Azərbaycan Ordusu Ağdamı da işğaldan azad edəcək. Hər gün sabahlarımız şad xəbərlərlə açılırdı. Ordumuz addım-addım Böyük Qələbəyə doğru irəliləyirdi. Oktyabrın 21-dən sonra Cavidandan zəng gəlmədi. Çox nigaran qaldıq. Sonra acı xəbər aldıq: komandiri zəng vurub Cavidanın şəhid olduğunu bildirdi. Dünya başıma fırlandı. Axı onun heç 20 yaşı da tamam olmamışdı.

Acı göz yaşları içində Cavidanı Badamdar qəsəbəsindəki Şəhidlər xiyabanında torpağa tapşırdıq. Dəfnində iştirak edən hərbçi yoldaşları onun döyüşlərdə göstərdiyi igidliklərdən ürəkdolusu danışırdılar. Övladım haqqında eşitdiyim bu sözlər sanki yarama məlhəm olurdu. Övlad itirmək ağır dərddir. Təskinliyi yalnız onda tapıram ki, Cavidan torpaqlarımızın azadlığı uğrunda şəhid olub. Onun qırxı çıxarçıxmaz atası Nizami oğul itkisinə dözə bilməyib dünyasını dəyişdi. Ölümü ilə dərdimizin üstünə dərd gətirdi.

### Cavidan yaddaşlarda igid bir əsgər kimi qalacaq

Gülnaz xanım dedi ki, şəhid ailəsi kimi dövlət ona iki otaqlı mənzil verib. Şəhid anası bu qayğı və diqqətə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlığını bildirdi. Cavidanın adı əbədiləşdirilib. Yaşadıqları küçə indi onun adını daşıyır. Oğlunun dostları onun adına həyətdə "Xatirə bulağı" tikib. Hər gün binada yaşayanlar, Cavidanın adını daşıyan bulaqdan su içənlər xatirəsini hörmətlə yad edirlər. Şəhid anası dedi ki, övladımın adını daşıyan küçə ilə addımlayanda qürur hissləri keçirirəm.



Cavidanın qardaşı Kənandan öyrəndik ki, İkinci Qarabağ müharibəsinin davam etdiyi günlərdə onu da ordu sıralarına çağırıblar. "Bizi birbaşa hərbi hissəyə gətirdilər. Həmin gün hamıya hərbi forma verdilər, silah payladılar. Ertəsi gün təlimlərə başladıq. Bir neçə gündən sonra bizi də müharibəyə aparacaqdılar. Məşğələlər zamanı silahları həvəslə öyrənirdik. Təəssüf ki, bu arzuma çata bilmədim. Qardaşım şəhid olduğuna görə məni ordu sıralarından tərxis etdilər. Qardaşım Şamxal da, mən də kiçik qardaşımız Cavidanla, onun şücaətləri ilə fəxr edirik".

Gülnaz xanım övladı ilə bağlı başqa bir maraqlı məlumatı da dedi: "Oğlumun ili ərəfəsində Türkiyədə yaşayan dostu zəng vurub dedi ki, Şəfiqə adlı bir qadın "Tvitter" səhifəsində Cavidanla bağlı paylaşım edib. Cavidan nə vaxtsa beş manatlıq pulun üstünə: "Şəhidləri unutmayın! İbrahimli Cavidan. Bakı - Badamdar" sözlərini yazıbmış. Hansı yollasa pul Şəfiqənin əlinə düşüb. O da pulun şəklini çəkərək paylaşım edib. Sonra həmin beş manatlıq əskinası bizə göndərdilər. Gülnaz xanım həmin pulu da, pulun şəklini də bizə göstərdi. Cavidanın bir vaxtlar üstünə öz xətti ilə yazdığı pul indi evlərində bərəkət rəmzinə çevrilib.

Şəhid anasının övladı ilə bağlı xatirələri qurtarmır. Sözünün əvvəli də Cavidandı, axırı da. Gülnaz xanımın oğul sevgisi heç vaxt da tükənməyəcək. Bu sevgi onu deyir ki, Cavidan yaddaşlarda igid bir əsgər kimi əbədi olaraq qalacaq.

**Vahid MƏHƏRRƏMOV,**
**Bakı şəhəri**

## Qazaxıstanlı veteran: Türk dünyası Azərbaycanın öz torpaqlarını azad etməsinə sevinir

Türk dünyası, bütün müsəlman aləmi Azərbaycanın öz torpaqlarını azad etməsinə sevinir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Astanada keçirilən brifinqdə Qazaxıstanın "Veteranlar birliyi" (Tacikistan-Əfqanıstan sərhədində hərbi əməliyyatların və silahlı münaqişələrin iştirakçıları) Respublika İctimai Təşkilatının sədri Murat Muxamedcanov deyib.

Birliyin rəhbəri Azərbaycanın 2020-ci ildə genişmiqyaslı hərbi əməliyyatı uğurla həyata keçirdiyini, bunun nəticəsində əvvəllər işğal olunmuş ərazilərin azad edildiyini vurğulayıb. O deyib: "Biz qardaş Azərbaycan xalqını ata-baba torpaqlarının işğaldan azad edilməsi münasibətilə təbrik edirik".

Muxamedcanov türk dövlətlərinin və Mərkəzi Asiya ölkələrinin beynəlxalq əməkdaşlığının və birliyinin gücləndirilməsi, habelə Türk dünyası veteranları hərəkatının qarşılıqlı fəaliyyətinin aktivləşdirilməsi və əlaqələndirilməsi məqsədilə bu günlərdə Qazaxıstan Respublikasında bir sıra tədbirlərin keçirildiyini xatırladıb.

"Əsas məqsədimiz gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmək, türk və müsəlman xalqlarının yaxınlaşması istiqamətində ölkələrimizin dövlət başçılarının təşəbbüslərini dəstəkləməkdir. Bu gün biz türk xalqlarının necə yaxınlaşdığını görürük. Birləşməyin vaxtı çatıb, çünki təhlükəsizliyimiz məhz əməkdaşlığımızdan asılıdır", - deyən Birliyin rəhbəri bütün bunların həm də hərbi qüdrətin artırılmasına töhfə verəcəyini vurğulayıb.

Tədbirdə çıxış edən Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi sədrinin beynəlxalq məsələlər üzrə müavini, polkovnik Elmar Hüseynov Qazaxıstanda türk dövlətlərinin nümayəndələrinin iştirakı ilə belə vətənpərvərlik tədbirlərinin keçirilməsinə görə minnətdarlığını bildirib. O əlavə edib: "Türk dövlətlərinin qazilərindən ibarət birliyimiz artıq aktiv şəkildə fəaliyyət göstərir". E.Hüseynov, həmçinin gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin vacibliyini qeyd edib.

Veteranlar Birliyinin proqramı çərçivəsində müxtəlif tədbirlərin, o cümlədən forum, avtoyürüş, Qırğızıstan və Azərbaycan veteranlarından ibarət nümayəndə heyətlərinin hərbi qulluqçularla görüşlərinin təşkili nəzərdə tutulub.

# “Qazandığımız hərbi bilik və təcrübələr xidmətdə ən yaxın köməkçimiz olacaq”



## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

***...Hərbi təhsillə bağlı qəbul edilmiş qərarlar, əminəm ki, yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir. Yeni döyüş birləşmələrinin yaradılması, ilk növbədə, Komando Qüvvələrinin yaradılması döyüş qabiliyyətimizin artırılması üçün önəmli amillərdən biridir.***

Müstəqil Azərbaycanda ordu quruculuğu prosesi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hakimiyyəti dövründə tamamilə yeni mərhələyə qədəm qoydu. Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam və inkişaf etdirən Prezident, Müzəffər Ali Baş Komandanın diqqət və qayğısı sayəsində hərbçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Azərbaycan Ordusunun ən müasir silah və texnikalarla təchizatı daim ön planda saxlanılır. Məhz Prezident cənab İlham Əliyevin bu ali diqqət və qayğısı sayəsində ordumuz qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı Şanlı Qələbə təkcə Azərbaycan tarixində deyil, dünya hərb tarixində də mühüm izlər qoydu. Bu Böyük Qələbə ordumuzun güclü maddi-texniki bazaya, ən müasir silah-sursatlara malik olmasını, həmçinin Azərbaycan hərbçilərinin mətinliyinin, igidliyinin, Vətən sevgisinin göstəricisi oldu.



Şanlı və tarixi zəfərimizlə başa çatan Vətən müharibəsindən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişinə əsasən, müharibənin nəticələri təhlil edilərək, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsi istiqamətində yeni islahatlar həyata keçirildi. Bu islahatların ən bariz nümunəsi dövlətimizin başçısının tapşırığı ilə azad edilmiş ərazilərdə dislokasiya olunmuş bölmələrin əməliyyat və döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi, həmçinin xüsusi şəraitdə döyüş tapşırıqlarının yerinə yetirilməsi məqsədilə Türkiyə modelinə uyğunlaşdırılan Əməliyyat (Komando) hərbi hissələrinin yaradılması oldu ki, bu proses bu gün də davam etdirilir.

Cari ilin hazırlıq planına uyğun olaraq, "N" hərbi hissəsində növbəti "Komando başlanğıc kursu"nun buraxılış mərasimi keçirildi.

Mərasimdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi, hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Çıxış edən polkovnik Zaur Rüstəmov iştirakçıları salamlayaraq onları Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik etdi. Zabit qabaqcıl təcrübəyə əsaslanan "Komando başlanğıc kursu"nun əhəmiyyətini xüsusi vurğulayaraq bu cür kursların keçirilməsinin hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin daha da artırılmasında müstəsna əhəmiyyətə malik olduğunu bildirdi. "Müasir Azərbaycan dövlətinin qurtuluş və inkişaf dövrü Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanın hərtərəfli inkişafına, qüdrətlənməsinə öz töhfəsini verərək, onun gələcəyinin inkişaf strategiyasını müəyyən etdi. Böyük tarixi şəxsiyyətin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərindən biri də müasir Azərbaycan Ordusunun memarı olmasıdır. Müstəqilliyimizin və ərazi bütövlüyümüzün etibarlı qarantı olan bugünkü güclü, rəşadətli Azərbaycan Ordusu Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şah əsərlərindən biridir. Orduda xidmət edən gənclərə yüksək diqqət və qayğı göstərən, onların xidmətini hər zaman yüksək qiymətləndirən Ümummilli Lider çıxışlarının birində hərbçilərimizə olan rəğbətini belə ifadə etmişdi: "Bütün peşələr şərəflidir, lakin hərb peşəsi bütün peşələrdən şərəflidir. Hərbçi olmaq sizlərin də ən birinci seçiminiz olmalıdır. Çünki bu yol mərdlik, cəsurluq, vətənpərvərlik yoludur. Bu yol qəhrəmanlıq yoludur". Sizin hər birinizi səmimi qəlbdən təbrik edir, bu qəhrəmanlıq yolunda, çətin və şərəfli vəzifələrinizdə uğurlar arzulayıram".





Polkovnik Elmar Zeynalabdinov kursu müvəffəqiyyətlə bitirənlərə gələcək xidmətlərində uğurlar arzuladı. O, bildirdi ki, bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində bütün sahələrdə olduğu kimi, ordu quruculuğu da inkişaf etdirilir və mühüm islahatlar aparılır. İkinci Qarabağ müharibəsindən sonra Komando birləşmələrinin yaradılması aparılan islahatların ən bariz nümunələrindən biridir. Dünyanın ən güclü orduları sırasında olan Türkiyə ordusunun modeli əsasında formalaşan Azərbaycan Ordusunun döyüş hazırlığının daha da yüksəldilməsinə töhfə verir. Keçirilən təlim və kurslarda öz peşəkarlığını artıran hərbi qulluqçularımız Vətənimizin keşiyində inamla dayanırlar. Ordu quruculuğunda aparılan yeni islahatlardan ruhlanan gənclərimiz də komandoda xidmət etmək arzusunda olurlar. Artıq minlərlə gəncimiz Komando hərbi hissələrində qürurla, Vətənə sevgi ilə şərəfli xidmətlərini yerinə yetirirlər.



Sonra kurs birincisi Rəvan Kətənov çıxış edərək kurs müddətində onlara dəstək olan komandir heyətinə və təlimatçılara minnətdarlığını bildirdi. "Komando olmaq həm mənim üçün, həm də ailəm üçün qürur mənbəyidir. Sevinirəm ki, keçirilən kursu mən də müvəffəqiyyətlə bitirdim. Kurs müddətində olduğu kimi, gələcək xidmətimdə də məsuliyyətli, tələbkar olacağam, qarşıya qoyulmuş vəziflərimin öhdəsindən layiqincə gəlib, hər zaman nümunəvi xidmətlə seçilən hərbçilərdən olmaq üçün səy göstərəcəyəm. Bu mundiri danışmaq, bu şərəfli peşəyə sahib olmaq hər gəncə qismət olmur. Biz seçilmiş, şanslı gənclərik ki, bu gün, bu müqəddəs sıralarda dayanmışıq. Həm də şanslı hərbçilərik ki, qalib ordunun nümayəndələriyik", - deyən R.Kətənov yiyələndikləri bilik və bacarıqları xidməti fəaliyyətlərində tətbiq edəcəklərinə, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin daha da artırılması naminə əllərindən gələni əsirgəməyəcəyinə söz verdi.

Rəmzi yaş kötüyünə emblem vurulduqdan sonra hərbi qulluqçulara sertifikatlar təqdim olundu, şəxsi heyət təntənəli marşla tribuna önündən keçdi.

Mərasim başa çatdıqdan sonra fürsətdən istifadə edib kursu bitirən kursantların bir neçəsi ilə həmsöhbət olduq.

Kursant Sabir Gərayev də "Komando başlanğıc kursu"nu bitirməyin qürurunu yaşayır. "Hərbçi olmaq öz arzum və istəyim olub. Yazıb-oxumağı öyrəndiyim ilk vaxtlardan hərbçi olmaq istəmişəm. Bu seçimimi valideynlərim də razılıqla qarşıladılar. Bu kursu uğurla başa vurmaq uşaqlıq arzularımın reallaşması yolunda ilk addımlarımdan biridir. Soydaşlarımızın qanı, canı bahasına bərpa olunan ərazi bütövlüyümüzün keşiyində mətin və iradəli dayanacaq, xidməti fəaliyyətimizi inamlı və nümunəvi təşkil edəcəyik. Qazandığımız hərbi bilik və təcrübələr xidmətdə ən yaxın köməkçimiz olacaq".

Əsəd Səfərov və Qadir Həmidli kurs müddətində yaradılan şəraitdən məmnunluqlarını ifadə etdilər. "Vətən müharibəsində qazanılan tarixi Zəfərdən sonra yaradılan yeni qoşun növündə - Komando bölmələrində xidmət etmək istəyirdik. Bilirdik ki, komandoların özünəməxsus çətinlikləri var, yüksək fiziki hazırlıq, çeviklik və psixoloji dözümlülük tələb edir. Bu gün sevinirik ki, biz də digər silahdaşlarımız kimi kursu müvəffəqiyyətlə başa vurduq. Kurs müddətində təlimatçılar tərəfindən müxtəlif döyüşaparma metod və üsulları öyrədildi, atəş bacarıqlarımızı təkmilləşdirdik. İndi hazırlıqlı bir hərbi qulluqçu kimi ərazi



bütövlüyü tam bərpa olunmuş Vətənimizin keşiyində durmağa hazırıq".

Hərbi qulluqçularımızla həmsöhbət olduqdan sonra bir daha əmin olduq ki, bu gün Komando birlikləri və hərbi hissələri düşmənə qorxu, dosta isə güvən verir. Azad edilmiş ərazilərimizin coğrafi relyefi nə qədər çətin olsa da, səmərəli təlimlərdən keçmiş yüksək fiziki hazırlığa, dözümlülüyə və döyüş qabiliyyətinə sahib komandolar istənilən döyüş tapışırığının öhdəsindən layiqincə gəlməyə qadirdirlər.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Suallar:**

1. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri.
2. Bölmənin şəxsi heyətinin qoşun xidmətini yerinə yetirmək üçün hərtərəfli hazırlığa səfərbərliyi.
3. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir.

**Mövzu:** Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin nümunəvi aparılması ordunun yüksək döyüş hazırlığının rəhnidir

***İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu məşğələyə hazırlaşarkən Daxili Xidmət Nizamnaməsinin, Qarnizon və Qarovul Xidməti Nizamnaməsinin, Qoşun Xidməti haqqında əmr və təlimatların tələblərini diqqətlə öyrənməli və məşğələyə hazırlaşarkən öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.***

### Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri

Hərbi hissələrin və bölmələrin daimi yerləşmə yerlərində, düşərgələrdə və döyüş şəraitində yüksək döyüş hazırlıqlı olmalarını, qarşıya qoyulmuş döyüş tapşırıqlarını vaxtında və müvəffəqiyyətlə həll etmələrini, mühüm hərbi obyektlərin etibarlı mühafizəsini, bölmələrdə daxili qayda-qanunun saxlanmasını, bölmələrin silah və sursatının, əmlakının qorunmasını təmin etmək üçün döyüş və ümumqoşun nizamnamələrinin tələbləri əsasında müvafiq xidmətlər təşkil olunur. Bu xidmətlər öz xüsusiyyətlərinə görə fərqlənirlər:

**- daxili xidmət** - hərbi hissələrdə, bölmələrdə, parklarda, tədris müəssisələrində, düşərgələrdə, eləcə də qoşunların yerdəyişməsi zamanı günün nizam qaydalarına ciddi riayət olunması, daxili qayda-qanunun saxlanması, silah və sursatın, digər əmlakın qorunması üçün Silahlı Qüvvələrin Daxili Xidmət Nizamnaməsinə uyğun təşkil edilir;

**- qarovul xidməti** - Döyüş Bayrağının, silahların, döyüş texnikasının, sursatların, partlayıcı maddələrin və digər əmlakın saxlanıldığı anbarların və s. hərbi obyektlərin etibarlı mühafizəsini və müdafiəsini təmin edir;

**- döyüş mühafizəsi və döyüş növbətçiliyi** - hərbi hissə və bölmə qarşısında qoyulmuş döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmək, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını təmin etmək üçün təşkil edilir.

Döyüş mühafizəsi və döyüş növbətçiliyinə təyin olunan bölmənin, hər bir hərbi qulluqçunun əsas vəzifələrindən biri də təhkim olunmuş döyüş və digər texnikanın, silahların, avadanlıqların həmişə saz, döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazır vəziyyətdə saxlanılmasıdır. Hərbi qulluqçu özünü döyüş mühafizəsinə təyin olunan hərbi qulluqçu hər hansı bir ekstremal şəraitdə vəzifə borcunu yerinə yetirməyə hazırlamalıdır.

Bu vəzifələri nümunəvi yerinə yetirmək üçün görülən işlərin əsas məqsədi aşağıdakılardır:

- bölmə və hissələrdə döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını, qoşun xidmətinin əhəmiyyətini hərbi qulluqçulara ətraflı izah etmək;
- hərbi qulluqçularda yüksək şüurluluq, əqidə möhkəmliyi, siyasi sayıqlıq, qarovul və qarnizon xidmətində, döyüş mühafizəsi və döyüş növbətçiliyində öz vəzifə borclarını dəqiq və qüsursuz yerinə yetirmək üçün şəxsi cavabdehlik hissləri tərbiyə etmək;
- hərbi qulluqçuları qoşun xidmətinə dair sənədləri, təlimatları, müdafiə nazirinin əmrlərini, hərbi nizamnamələri, Azərbaycan Respublikasının qanunlarını dərindən öyrənməyə yönəltmək;
- hərbi nizamnamələrin tələblərinin, qarovul və qarnizon xidməti qaydalarının, döyüş mühafizəsi və döyüş növbətçiliyinin aparılma qaydalarının pozulmasına görə hərbi qulluqçuların məsuliyyətini müəyyənləşdirən hüquq normalarını izah etmək;
- daxili xidmət, qarovul və qarnizon xidmətlərinin yerinə yetirilməsində qabaqcıl təcrübənin öyrənilməsini, ümumiləşdirilməsini və yayılmasını təşkil etmək, qoşunlarda mövcud ənənələri, xidmətdə hünər və qəhrəmanlıq nümunələrini təbliğ etmək;
- qarovula, daxili naryada, döyüş növbətçiliyinə və döyüş mühafizəsinə hazırlıq dövründə və xidmət edərkən hərbçilərlə daha təsirli təlimat və tərbiyəvi xarakterli işlər aparmaq, qabaqcıl təcrübəni komandirlər (rəislər) və şəxsi heyət arasında yaymaq;
- naryadda olan hərbi qulluqçuların maddi-məişət və mənəvi tələbatlarının öyrənilib təmin olunmasına qayğı göstərmək.

### Bölmənin şəxsi heyətinin qoşun xidmətini yerinə yetirmək üçün hərtərəfli hazırlığa səfərbərliyi

Daxili xidmətə, qarovul və qarnizon xidmətinə hazırlıq prosesində hərbi nizamnamələrin öyrənilməsi, hərbi qulluqçulara nizamnamə tələbləri ilə yaşamaq və xidmət etmək hissi aşılamaq başlıca yer tutur. Bu məqsədlə döyüş və humanitar hazırlıq məşğələlərindən əlavə məqsədyönlü təbliğat işləri aparılır. Bölmələrdə, hissələrdə və gəmilərdə mühazirələr oxunur, konfranslar keçirilir, söhbətlər aparılır.

Mövzuların təxmini adları:

"Nizamnamə qaydalarının yerinə yetirilməsində qoşun xidmətinin əhəmiyyəti", "Hərbi nizamnamələr hərbçi həyatının hüquqi və mənəvi normalarının toplusudur" və s.

Komandirlər və şəxsi heyətlə iş üzrə zabitlər gənc əsgər və matroslara nizamnamələrin əsas müddəalarını izah etdikdə onların diqqətini gündəlik naryadda vəzifə borclarını bilmələrinə, gün növbətçisinə və patrula verilən konkret tapşırıqlara cəlb etməlidirlər.

Hərbi qulluqçularda öz vəzifə borclarını qüsursuz yerinə yetirmək üçün lazım olan mənəvi və döyüş keyfiyyətlərinin formalaşmasında ictimai-siyasi hazırlıq dərslərinin böyük rolu var. Ona görə də ictimai-siyasi hazırlıq dərslərində qrup rəhbərləri döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılmasında möhkəm intizamın və yüksək sayıqlığın əhəmiyyətini daha dərindən anlamaqda hərbi qulluqçulara köməklik edir. Məhz bu dərslərin sayəsində şəxsi heyətin döyüş ruhu formalaşır, dünyagörüşü artır, mənəvi maariflənməsi həyata keçirilir.

Qoşun xidmətinə dair məsələlər məruzələrdə, söhbətlərdə, divar qəzetlərində və döyüş vərəqələrində işıqlandırılır. Hərbi hissələrdə hər ayın axırında qoşun xidmətinin təhlili aparılır, yekunlaşdırılır və hərbi hissə komandirinin müvafiq əmri ilə elan edilir. Həmin əmrdə qoşun xidmətinin yoxlanılması zamanı aşkar edilmiş nöqsanlar göstərilir, daxili naryad, qarovul, döyüş növbətçiliyi xidmətlərinin aparılmasını yaxşılaşdırmaq üçün tədbirlər müəyyən edilir, eləcə də fərqlənənlərə həvəsləndirmə tətbiq edilir.

### Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir

Daxili xidmətə təyin olunmuş hərbi qulluqçularla iş aparılarkən yataqxanada, döyüş maşınları parkında, yeməkxanada, hərbi şəhərciyin ərazisində nizamnamə qaydalarına əməl edilməsinə onların cavabdehliyi xüsusi qeyd olunur, lazımi təlim məşğələsi keçirilir və bu məşğələdə yerli şəraitə uyğun yüksək sayıqlıq və döyüş hazırlığını təmin edən amillər öyrənilir. İndiki dövrdə qarovul xidmətinin, döyüş mühafizəsinin və döyüş növbətçiliyinin xüsusi əhəmiyyət kəsb etməsi məşğələdə dinləyicilərə çatdırılmalıdır. Bu isə ondan irəli gəlir ki, düşmən kəşfiyyatçıları ordumuzun döyüş sayıqlığı və qoşunların yerləşdiyi məntəqələr haqqında məlumat toplamaq üçün hər cür vasitələrə əl atır.

Hərbi Dəniz Qüvvələrinin gəmilərində növbətçiliyin xüsusi növü - "vaxta" xidməti təşkil olunur. Gəminin və onun mexanizmlərinin idarə olunması şəraitinə nəzarət etmək, düşmənin qəfil hücumu zamanı silah tətbiqini və gəmidə nizam-intizamın gözlənilməsini təmin etmək üçün növbətçi daim sayıq olmalıdır. Qarovul rəisi hərbi hissənin (birləşmənin) anbar, park və maşın (təyyarə, qurğu) dayanacaqlarının və digər mühüm obyektlərin mühafizə postlarına xidmətə təyin olunan şəxslərlə xüsusi iş aparır və onların daha sayıq olmasına daim nəzarət edir.

Qoşunların fəaliyyətində daxili xidmət naryadlarının, qarnizon və qarovul xidmətlərinin xüsusi əhəmiyyəti vardır. Bu xidmətlər hissə və bölmələrin döyüş hazırlığını müəyyən edən müasir tələblər əsasında hərbi nizamnamələrə uyğun təşkil olunur. Daxili naryadın vəzifəli şəxslərinin hazırlığı onların nizamnamə vəzifələrini yerinə yetirmələrini təmin edir. Ona görə də naryada təyin olunan şəxsi heyət öz vəzifə borclarını, müxtəlif şəraitlərdə, məsələn, "həyəcan", "toplanış" siqnalları alarkən, silah-sursat verərkən, səhər baxışı və axşam yoxlamaları apararkən, məşğələ saatlarında hərəkət qaydalarının öyrənilməsinə məsuliyyətlə yanaşmalıdır. Naryada təyin olunan hər bir hərbi qulluqçu nizamnamə üzrə vəzifələrini əsaslı təkrar etməlidir.

Qarovul (vaxta) xidmətinə təyin olunan hər bir əsgər, çavuş bu xidmətin döyüş tapşırığı olduğunu, qarovulda qoyulmuş tapşırıqların yüksək məsuliyyətini şüurlu dərk etməli, nizamnamə qaydalarının hər cür pozulmasına qarşı ciddi mübarizə aparmalıdır.

Qarovulda əsas diqqət Döyüş Bayrağının, saxlancların, parkların mühafizəsinə, eləcə də gecə vaxtı və pis hava şəraitində xidmət aparan şəxsi heyətin təlimatlandırılmasına yönəldilir. Onlar öz vəzifələrini yerinə yetirərkən yüksək sayıqlıq nümayiş etdirməlidirlər.

Qarnizon xidmətinin şəxsi heyəti ilə aparılan işlərin forması və məzmunu qarovul xidmətində olduğu kimidir. Lakin burada hərbi qulluqçulara təlimat keçərkən onların hərbi hissədən kənara çıxması, yerli əhali ilə təmasda olması qeyd edilir və ona görə də onlardan daim sayıqlıq, hərbi sirləri qoruyub saxlamaq, təmkinlilik, nümunəvi xarici görünüş tələb olunur. Ümumiyyətlə, aparılan işlərin əsas məqsədi hərbi qulluqçuları şəraitdən asılı olmayaraq hərbçi şərəfinə layiq xidmət etməyə, hərbi andın, nizamnamələrin və komandirlərin (rəislərin) tələblərini dəqiq və qüsursuz yerinə yetirməyə ruhlandırmaqdır.

Bu gün Azərbaycan əsgəri dövlətin qayğısını hər zaman üzərində hiss edərək, xalqdan güc alaraq torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanır və istənilən silahlı təxribata layiqli cavab verməyə hər an hazırdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 15 oktyabr 2023-cü ildə Xankəndi şəhərində xalqa müraciətində demişdir: "... Bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda, keçən ay cəmi 23 saat davam edən antiterror tədbirləri bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu..."

Bu gün Azərbaycan əsgəri torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanır. Regionda yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı və ərazi bütövlüyümüzə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə qadir olmasını tələb edir. Bu gün Azərbaycan əsgəri Vətənin maraqlarını şərəflə qoruyur.

Bir vaxtlar prioritet vəzifəsi ərazi bütövlüyümüzü bərpa etmək olan ordumuz, bundan sonra da həmin bütöv və qüdrətli Azərbaycan Respublikasının qorunmasında öz missiyasını layiqincə yerinə yetirəcəkdir. Daim xalqın iftixar mənbəyi kimi tarixin şanlı səhifələrində özünə yer tutması üçün hər bir hərbi qulluqçudan ona həvalə edilmiş vəzifələrin məsuliyyətlini dərindən dərk edilməsi tələb olunur. Yalnız möhkəm hərbi intizama malik olmaqla komandirlərin əmr və göstərişlərini dəqiq və sözsüz yerinə yetirməklə dərslərdə, təlimlərdə və gələcək xidmətdə yüksək nəticələr əldə etmək olar.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

### Heç kim unudulmur

# "Qürur duy, məğrur duruşunla məni xatırla"

## Şəhid kapitan Elcan Balabəylinin həyat hekayəsi

*Bir gün haçansa Elcandan xəbərsiz ailəsinin qonağı olacağım heç ağlıma gəlməzdi... O mənim yaddaşımda ucaboy, arıq, intizamlı və özünə qapanıq biri kimi qalıb. İri, ala gözləri vardı. Baxışlarına sirli bir dünya sığışmışdı: O dünyada Vətən vardı, torpaq vardı, neçə-neçə qaçqının ağır taleyi vardı. Bir də təbii ki, düşmənə dərin nifrət vardı.*

Elcanı Heydər Əliyev adına Hərbi Liseydən tanıyırdım. Müəllim kimi onunla fərdi söhbətim də olmuşdu. O xatirələrin üzərindən illər keçib. Boş qalmış otağında divardan asılmış şəkilləri ilə üz-üzə dayanmışam. İndi bir kursantla deyil, igid zabit, cəsur döyüşçü, neçə-neçə medalın sahibi, iri cüssəli, sərt baxışlı Elcanla üz-üzə dayanmışam.Taleyin nə qəribə gərdişi varmış...

Balabəyli Elcan Vasif oğlu 12 mart 1992-ci ildə Naxçıvan şəhərində anadan olub. 1998-2007-ci illərdə Naxçıvan şəhər Mirəsgər Seyidov adına 15 saylı tam orta məktəbdə təhsil alıb. Anası Səkinə xanım deyir ki, dərslərini əla oxuyurdu. Hətta bir dəfə aşağı qiymət almışdı deyə mənim üzümə baxa bilmirdi. O qədər inadkar, fədakar və qətiyyətli idi ki, atası da, mən də onu tamamilə başqa sahədə görürdük. Potensialı var idi. Birinci ili önünə keçdik. Lakin ikinci ili onun hərb peşəsinə olan sevgisi qarşısında dayana bilmədik. 2007-ci ildə yüksək balla Heydər Əliyev adına Hərbi Liseyə daxil oldu. Uğurlar arzuladıq.

Atası Vasif kişi deyir ki, nəslimizdə hərbçi olmayıb. Elcan ailəmizin ilk övladı idi. Balaca qardaşı Elçinlə onu tez-tez Şəhidlər xiyabanına aparardım. Xiyabanda dəfn olunan şəhidlər arasında dostum Bahadur Abbasov da var idi. Mənim dostuma, şəhid qardaşlarımıza olan ehtiramını Elcan həmişə diqqətlə izləyərdi. Orta məktəbdə bütün hərbi-idman oyunlarına qatılar, fəxri fərmanlarla geri dönərdi. Onun tale yolu artıq seçilmişdi...

Elcan Balabəyli Hərbi liseyi bitirib 2010-2014-cü illərdə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbində hava hücumundan müdafiə ixtisası üzrə təhsilini də müvəffəqiyyətlə



başa vurur. 2014-2015-ci illərdə Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində təkmilləşdirmə kursu keçir. 2015-ci ildən Azərbaycan Ordusunun sıralarında zabit kimi xidmət dövrü başlayır. Döyüş və ictimai-siyasi hazırlığın yüksəldilməsində, hərbi intizamın möhkəmləndirilməsində əldə etdiyi nailiyyətlərə görə bir sıra fəxri fərmanlara layiq görülür. 2018-ci ildə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə, 2021-ci ildə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı ilə təltif edilir. Lakin bunlar son deyildi. 2016-cı il Aprel döyüşləri qələbəmizin qığılcımı kimi tarixə düşdü. Bir sıra strateji yüksəklik düşməndən təmizlənir. Elcan Balabəyli Lələtəpə istiqamətində xidmətini davam etdirir.

2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsi nəinki ordumuzun gücünün, həm də xalqımızın birliyinin təcəssümü oldu. Kapitan Elcan Balabəylinin döyüş yolu Füzulinin Alxanlı kəndindən başladı. Bir neçə saat ərzində Füzulinin bir sıra kəndləri düşməndən təmizlənir. Bütün atəş vasitələrindən istifadə edərək dərinliyə doğru irəliləyən qüvvələrimizin qarşısını almaq istəyən düşmənin cəhdləri boşa çıxır. Şiddətli döyüşlərdə Elcan qəlpə yarası alır. İlkin tibbi yardım göstərilir və təxliyə olunması məsləhət bilinir. Lakin Elcan son ana qədər döyüşəcəyini bildirərək fəaliyyətini davam etdirir. Füzulidən başlayan döyüş yolu Xocavənddən Şuşaya qədər davam edir. Şuşaya ilk ayaq qoyan döyüşçülərdən biri olan kapitan Elcan Balabəyli ailəsinə sevincli xəbəri çatdırır. Düşmən təslim olur. Xalq zəfərini qeyd edir. Belə şadyana vaxtlarda Elcan Naxçıvana, ailəsinin yanına gəlir. Qəhrəman döyüşçü hava limanında alqışlarla qarşılanır. Elcan ilk olaraq Vətən müharibəsi şəhidlərinin dəfn olunduğu xiyabana gəlir...

2021-ci ildə Elcanın toy hazırlıqları başlayır. Atası toyu iyulun 14-nə təyin edir. Bunu eşidən Elcan "Həmin gün Milli qəhrəmanımız Polad Həşimovun anım günüdür", - deyə etiraz edir. Beləliklə, toy ayın 16-na təyin olunur.

Xoşbəxt ailə həyatına qədəm qoyan Elcan xidmətinə davam edir. Məğlubiyyəti ilə hələ də barışmayan düşmən həyata keçirilmiş sonrakı əməliyyatlardan da yetərli nəticə çıxarmamışdı. Düşmən daha da azğınlaşırdı. Üçtərəfli Bəyanatın tələblərinin kobud şəkildə pozulması, qəbul edilmiş öhdəliklərin yerinə yetirilməməsi və digər bu kimi hallar zəruri tədbirlərin həyata keçirilməsini qaçılmaz edirdi.



Sentyabrın 19-u səhər saatlarında Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin və qeyri-qanuni silahlı birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən terror məqsədilə ordumuzun təminat yollarının minalanması nəticəsində iki mülki şəxs və dörd polis əməkdaşımızın şəhid olması düşmənin pozuculuq fəaliyyətinin önlənməsini şərtləndirdi və əməliyyat tədbirləri başlandı. Kapitan Elcan Balabəyli də tabeliyindəki heyət ilə Ağdərə istiqamətində döyüşlərə cəlb olundu. Əsgərləri hər vəchlə qoruyan kapitan Balabəyli düşmən qüvvələrinin fəaliyyətlərini dəf edir, snayper atəşi ilə başından aldığı yaradan qoruduğu, sevdiyi torpağa sarılır. "Əgər şəhid olarsam, qolumdakı saatı mütləq atama çatdırın", - demişdi. Həyatının son anında belə bu istəyini qolunu irəli uzatmaqla ifadə edir.

23 saat 50 dəqiqə müddətində yekunlaşan lokal xarakterli antiterror əməliyyatı nəticəsində Ermənistan silahlı qüvvələrinin qalıqları təslim olur. Düşmənin məğlubiyyətində Elcanın da payı var idi...

20 sentyabr 2023-cü ildə Elcan Balabəylinin nəşi Naxçıvana gətirilir. Vətən müharibəsindən sonra Naxçıvana gəlişində ilk ziyarət etdiyi şəhidlərin yanında dəfn edilir.

İndi həmin saat Elcanın vətənpərvərliyini, igidliyini əşyaları ilə təcəssüm etdirən otağında sərgilənir. O vaxtdan heç dayanmayıb. Zamanı göstərir. Bəlkə də, Elcan onunla qürur duyan atasına həyatın davam etdiyini, mübarizədən ibarət olduğunu və bu mübarizədən qalib çıxmağı, səbirli olmağı arzulamışdı. Kim bilir...

Qardaşı Elçin Elcanın yaxasını medallar bəzəyən hərbi formasını göstərir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə verilən "Hərbi xidmətlərə görə", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medallarını Elcan özü formaya sancmışdı, - deyir. İxtisasını artırmaq məqsədilə oxumağa gedəcəkdi. Bunun üçün artıq ilkin hazırlıqlar başa çatmışdı. O, daha ali mərtəbəyə - şəhidlik məqamına ucaldı. Mən onunla qürur duyuram".

Ölümündən sonra Elcan Balabəyli Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "İgidliyə görə" medalı ilə təltif edilib.

Canını çox sevdiyi Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına fəda edən Elcanın da arzuladığı kimi: Qürur duy, məğrur duruşunla onu xatırla, Səkinə ana. Bizim borcumuz Elcan Balabəyli kimi igidlərin seçdiyi yola - Vətən yoluna sayğı göstərmək və daim onları sevgi ilə xatırlamaqdır!

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan televiziyasının baş redaktoru**

# Xəbərlər: hadisələr, faktlar

### NATO-nun Rumıniyadakı bazasının sahəsi dörd dəfə genişlənəcək



NATO-nun Rumıniyadakı hərbi bazasının ərazisi modernləşdirmə işlərindən sonra dörd dəfə genişlənəcək.

Bu barədə "Le Monde" qəzeti Rumıniya hərbçilərinə istinadla məlumat yayıb.

Nəşrin məlumatına görə, bazanın böyüdülməsinə əlavə uçuş-enmə zolağı, həmçinin təyyarələrin hərəkəti və parklanması üçün geniş yer daxildir. Bundan əlavə, bazada anqarlar, anbarlar, yeni idarəetmə qülləsi tikiləcək, xəstəxana və məktəbləri olan "bütöv şəhər" salınacaq. NATO əsgərləri və onların ailələri bu şəhərcikdə daha uzun müddət yaşaya biləcəklər.

Qəzet yazır ki, Rumıniyadakı baza "Rusiya təhlükəsi" qarşısında alyansın şərq cinahında "ən strateji əhəmiyyətli obyektlərdən" birinə çevrilib. Oradan xüsusən Qara dənizə nəzarət edilir.

Mediada yayılan məlumatlara əsasən, bazada ailələri və yardımçı heyətlə birlikdə 10 min NATO əsgəri yerləşəcək. Tikintisinin 2040-cı ilə qədər tamamlanması gözlənilən bu kompleks NATO-nun Avropadakı ən böyük hərbi bazası ola bilər.

### Media: Britaniya və ABŞ Yəməndəki husi hədəflərinə yenidən zərbə endirib



Böyük Britaniya və ABŞ silahlı qüvvələri Yəməndə üsyançı husilərin "Ənsar Allah" hərəkatının nəzarətində olan Hudeydə əyalətindəki hədəflərə hava zərbələri endirib.

Bu barədə hərəkatın nəzarətində olan "Əl-Masirah" telekanalı məlumat yayıb.

Hərəkatın lideri Əbdül Malik əl-Husi ABŞ-ın təkcə bu həftə Yəmənə ən azı 10 hava hücumu həyata keçirdiyini söyləyib. Onun sözlərinə görə, cari ilin yanvarından etibarən Britaniya və ABŞ qüvvələrinin nəqliyyat hədəflərini bombalaması nəticəsində ölənlərin sayı 73-ə çatıb.

### ABŞ Almaniyaya 5 milyard dollar dəyərində "Patriot" raketlərinin satışını təsdiqləyib



ABŞ Dövlət Departamenti Almaniyaya 5 milyard dollar dəyərində "Patriot" raketlərinin mümkün satışını təsdiqləyib.

Bu barədə Pentaqona daxil olan Təhlükəsizlik üzrə Əməkdaşlıq Agentliyi məlumat yayıb.

Qeyd olunub ki, Almaniya əvvəllər ABŞ-dan göstərilən məbləğə 600-ə qədər PAC-3 MSE raketi və müvafiq avadanlığı istəyib. "Təsdiqlənmiş saziş çərçivəsində silah tədarükü ABŞ-ın xarici siyasətini və milli təhlükəsizlik maraqlarını təmin edir və həmçinin Almaniyanın gələcək təhdidlərə cavab vermək qabiliyyətini gücləndirəcək", - məlumatda deyilir.

### Fransada iki qırıcı təyyarə toqquşub



Fransa Hərbi Hava qüvvələrinin iki "Rafale" qırıcı təyyarəsi ölkənin şərqində qəzaya uğrayıb.

Bu barədə "Est Republica" qəzeti məlumat yayıb.

Nəşrin məlumatına görə, göyərtədə üç nəfər olub. Hazırda jandarm və yanğın-xilasetmə xidməti axtarış-xilasetmə əməliyyatı aparır. Pilotlardan birinin katapult olunduğu və sağ tapıldığı bildirilir. O, yaralansa da, huşunu itirməyib.

Qalan ekipaj üzvlərinin axtarışları davam edir. Qəzanın səbəbi hələlik aydınlaşmayıb.

**AZƏRTAC-ın materialları əsasında**

*Nümunəvi xidmət*

# “Yarışın qalibi olacağıq”



Əsən mehi də sevirdi, yarpaqların titrəməsini də, dənəbir-dənəbir yağan yağışları da. Yarpaqların saralması, rüzgara görə budağından üzülməsi könlünü qubarlandırırdı. Təbiətdə gördüklərini yaşı artdıqca insan ömründə müşahidə edirdi; təbiətin payızını sevirdi, ömrün payızı onun uşaqlıq, yeniyetməlik düşüncələrində yel əsdirirdi. İlləri belə yaşadı. Təbiətə sevgisi ona Xəzəri sevdirdi, Xəzərə sevgisi - Bakını. Bakını sevdi, Bakının timsalında Azərbaycanı sevdi.

Hərbi xidmətə çağırıldı. İki il əvvəl yaşının azlığına təəssüflənmişdi, indi yaşına görə sevinirdi: Əsgər olacaqdı. O da "Vətənimizin keşiyini çəkirik!" - deyənlərin sırasında dayanacaqdı. Ərəfədə anasının hərbi mundirinə baxardı, təsəvvüründə ayları qabaqlayardı, "Əsgər Rəşad Xalıqov!" - çağırışı onun ruhunun mehinə dönərdi...

İdmanla məşğul olurdu. Tay-tuşları onun böyük uğurlar qazanacağına inanırdı. Məşqçisi on qat dünya çempionu Eduard Məmmədovun bir tövsiyəsi məşqlərinin mahiyyətini müəyyənləşdirirdi. Hamıdan güclü olduğuna əmin olmayan idmançı uğur qazana bilməz. Yarışlara belə hazırlaşırdı, yarışlarda rinqə belə çıxırdı; qaydasız döyüş üzrə püxtələşirdi. 2019-cu ildə respublika ikincisi oldu. "Rəqibim güclü idmançı idi. Əzmkarlıqla döyüşdüm. Bir anlığa, tək bircə anlığa diqqətsizliyim məni çempionluqdan ayırdı. Hər halda, uğur qazanmışdım..." - Rəşad dörd il əvvəlin 17 fevralını bu təəssüflə, bu qürurla xatırlayır...

2022-ci il yanvarın 10-da hərbi xidmətə başladı. Hərbi mundiri geyindiyi an, sırada dayandığı anlar, sırada ilk əmri eşitdiyi an, hərbi yerişin ilk addımları, hərbi xidmətin ilk gecəsi, - Rəşadın yaddaşına hopdu. Hərbi And içdiyi günün təntənəsi bunların ahəngrübasına döndü...

2023-cü ilin iyulunda tərxis edildi. Hərbi xidmət dövründə istəyi arzuya, niyyətə çevrilibmiş, hərbçi olmağı qərara alıbmış. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olmaq! Komandiri onun istəyinə, niyyətinə xeyir-dua verdi. Bu istəyinə anası da etiraz etmədi - yeniyetməliyində hərbçi peşəsinə marağını hiss eləmişdi. Rəşad Xalıqov müvafiq kursu bitirdi. Xidmətini müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi davam etdirir. Artilleriyaçıdır, top komandiridir...

2023-cü ilin sentyabr döyüşlərinə onun xidmət etdiyi hərbi hissə də cəlb olunmuşdu. Komandiri əsgər Rəşad Xalıqov olan top da döyüşdü, Ağdərə, Xocalı, Meşəli istiqamətlərində döyüşənlərimizə atəş dəstəyi verdi, düşmənin mövqelərini, döyüş texnikalarını, canlı qüvvəsini məhv etdi. "Birinci Qarabağ müharibəsində Ağdərə uğrunda getmiş döyüşləri, Meşəli və Xocalı faciələrini xatırlayırdıq. Topumuzun heyəti, mərmiləri bu faciələrə təsəlli olacaq qələbə üçün atırdı. Qələbə qazanıldı, Azərbaycanın ərazi bütövlüyü tam bərpa olundu. Onda xəyalən anama dedim ki, mən də döyüşdüm, ay ana!..", - Rəşadın sevinci hamımıza doğma olan sevincdi...

Əsgər Rəşad Xalıqov nümunəvi hərbi qulluqçudur. Komandiri olduğu topun heyəti topa yaxşı qulluq edir, hər biri yüksək döyüş hazırlığına malikdir. Onlar birlik üzrə keçiriləcək ən yaxşı top heyəti yarışına hazırlaşırlar. Əsgər Rəşad Xalıqov əminliklə bildirdi ki, yarışın qaliblərindən olacaqlar...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Vətənpərvərlik ruhu yüksəkdi





*<u>Müdafiə Nazirliyinin təsdiq etdiyi tədbirlər planına əsasən, gənc əsgərlərin ordu həyatına uyğunlaşması üçün zəruri tədbirlər həyata keçirilir. Göstərilən xüsusi diqqət və qayğı gənc əsgərləri Vətənə, xalqa nümunəvi xidmətə ruhlandırır. Onların asudə vaxtlarının səmərəli keçirilməsi də yüksək səviyyədə təşkil olunur.</u>*

Tədbirlər planına əsasən, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşları hərbi hissələrdə gənc əsgərlər üçün vətənpərvərlik tədbirləri təşkil etdilər .

Tədbirlərdən öncə böyük tarixi şəxsiyyət Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü, suverenliyi uğrunda şəhid olanların xatirəsi böyük ehtiramla yad olundu. Dövlət Himni səsləndirildi.

Təbliğat-təşviqat qrupunun üzvü Naibə Qurbanova Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında keçirilən genişmiqyaslı islahatlardan, ölkəmizin gündən-günə artan qüdrətindən Silahlı Qüvvələrə göstərilən yüksək diqqət və qayğıdan ətraflı məlumat verdilər. Bildirdilər ki, şanlı ordumuzun, xalqımızın, dövlətimizin möhtəşəm birliyi və həmrəyliyi ilə, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin böyük sərkərdəlik məharəti ilə işğal olunmuş torpaqlarımız Vətən müharibəsində azad olundu. Ölkəmizin ərazi bütövlüyü, suverenliyi təmin olundu. Şanlı ordumuz Vətənimizin tarixinə yeni qəhrəmanlıq - Zəfər salnaməsi yazdı. Ölkəmizin həyatında yeni mərhələ başlandı. İşğaldan azad olunmuş ərazilərin bərpa edilməsi üçün quruculuq işlərinə start verildi. Düşmənlərin talan etdiyi, dağıtdığı şəhər və kəndlərimiz, qəsəbələrimiz yenidən qurulur. Soydaşlarımız doğma yurd-yuvalarına qayıdır. Silahlı Qüvvələrin daha da möhkəmləndirilməsi üçün məqsədyönlü fəaliyyət uğurla davam etdirilir. Əsgər və zabitlərimizin yüksək vətənpərvərliklə xidmət etmələri üçün hərtərəfli şərait yaradılmışdır.



Sonra Mərkəzin əməkdaşları "Əsgərə məktub" layihəsi haqqında da məlumat verdilər. Bildirdilər ki, layihə cəmiyyətlə ordu arasında əlaqələrin möhkəmləndirilməsinə xidmət edir. Əsgərlər doğmalarına qürur dolu məktublar ünvanladılar. Azərbaycan Yazıçılar Birliyinin üzvü Samirə Bayramova vətənpərvərlik mövzusunda ordumuza həsr etdiyi şeirlərini oxudu. Mərkəzin nəzdində fəaliyyət göstərən "Vətən uğrunda" ansamblının solisti Bayram Məmmədovun oxuduğu "Yaşa Azərbaycan" mahnısı, Təbriz İsmayılovun sazda ifa etdiyi el havaları, gənc əsgər Emil Hacıyevin fleytada ifası alqışlarla qarşılandı. Əsgər və zabitlər qəhrəman, mərd, yenilməz döyüşçülərin davamçıları kimi xidmət edəcəklərini bildirdilər.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Çempionlar Liqası: “Qarabağ” “Ludoqorets”i darmadağın edərək pley-off mərhələsinə vəsiqə qazanıb




UEFA Çempionlar Liqasının III təsnifat mərhələsinin cavab oyunu çərçivəsində Bolqarıstanda üz-üzə gələn "Ludoqorets" və "Qarabağ" komandaları arasında görüş Ağdam təmsilçisinin 7:2 hesablı qələbəsi ilə yekunlaşıb.

Komandamızın heyətində qolları Olavio Juninyo, Yassin Benzia (2 qol), Toral Bayramov, Redon Cica və Patrik Andrade (2 qol) vurublar.

Bununla da təmsilçimiz UEFA Çempionlar Liqasının pley-off mərhələsinə çıxıb.

"Qarabağ" Çempionlar Liqasının pley-off mərhələsində Xorvatiyanın "Dinamo" (Zaqreb) komandası ilə qarşılaşacaq.

## Azərbaycan taekvondoçuları beynəlxalq turnirdə 12 medal qazanıblar



Azərbaycan taekvondoçuları Özbəkistanda keçirilən "Səmərqənd Open" turnirində 12 medal qazanıblar.

Murad Həsənzadə (26 kq) və Sübhan Rzayev (38 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Nigar Useynova (İndividual - U30) və Narin Həsənova (İndividual - U18) gümüş mükafata yiyələniblər.

Zəhra İsayeva (42 kq), Vidadi Məmmədli (26 kq), Cahid İsmayılzadə (42 kq), Yusif Zeynallı (+42 kq) gümüş, Fateh Sultanlı (38 kq), Aliyə Məmmədli (+42 kq), Əkbər Tağıyev (24 kq), Mirzəli Uğur (40 kq) isə üçüncü yeri tutublar.

## Azərbaycanın bədii gimnastları Almatıda 3 qızıl medal qazanıblar




Azərbaycanın bədii gimnastları Qazaxıstanın Almatı şəhərində keçirilmiş "Alma Cup" beynəlxalq turnirində üç qızıl medal qazanıblar.

Yarışın reqlamentinə əsasən çoxnövçülük proqramında çıxışlar iki alət üzrə qiymətləndirilib.

Lent və gürzlər üzrə yerinə yetirilən çoxnövçülük proqramında gənclər arasında Fidan Qurbanlı (49.500 xal), yeniyetmələr yaş kateqoriyasında Alina Kolesnikova (44.150 xal) qızıl medalın sahibi olub. Nur Sadıqova (51.950 xal) isə yeniyetmələr arasında keçirilən halqa və top alətləri üzrə çoxnövçülük mübarizəsində fəxri kürsünün ən yüksək pilləsinə yüksəlib.

Bundan başqa, zəriflik nümayişində gənclər arasında F.Qurbanlı, yeniyetmələr arasında isə N.Sadıqova "Miss Grace" nominasiyasının qalibi adına layiq görülüblər.

## Ronaldo ən çox qol vuran futbolçular arasında yeni rekorda imza atıb



Portuqaliya millisinin və Səudiyyə Ərəbistanının "Əl-Nəsr" klubunun üzvü Kriştianu Ronaldo yeni rekorda imza atıb. 39 yaşlı forvard ardıcıl 23 mövsümdə ən azı bir qol vuran ilk futbolçu kimi tarixə düşüb.

Onun bu uğuru Səudiyyə Ərəbistanı Superkubokunun yarımfinal matçına təsadüf edib. Ulduz oyunçu "Əl-Taavun"a qarşı görüşdə fərqlənib.

“Əl-Nəsr" Superkubokun finalında "Əl-Hilal" komandası ilə üz-üzə gələcək. Qarşılaşma avqustun 17-də keçiriləcək.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 508
Nüsxə 2000